

“Salam. Sənə bir sirr açacağam!
Hər kəsin qorxuları var,
əsas odur ki, heç kəs bilməsin”.




Çirki qaranlıqdan qorxur. Düşünür ki, Qulyabanı qaranlıqda pusquda dayanıb onu gözləyir. O, tez-tez yaxın dostu sincab Tiklini gecələməyə dəvət edir, axşamlar bütün lampaları yandırır, tıqqıltıları təkrarlayır. İşıqda yuxuya getmək çətin olsa da, ola bilsin, qorxunu dəf etmək üçün yararlı üsuldur. Axı Çirki heç vaxt Qulyabanı görməyib.




Tikli hündürlükdən qorxur, çünki bir dəfə o, yuxulu halda yataqdan qalxanda ağacdan yıxılıb pis günə düşmüşdü. Bu səbəbdən budaqdan-budağa tullanarkən aşağıya baxmamağa çalışır. Meşədəki ən zirək, ən qıvraq sincab olmaq istədiyi üçün o həm də gizlicə məşq edir.




Onlar Çirkinin başına bir iş gələcəyindən qorxurlar. Yalnız ən yaxın şam ağacına tək uçmasına icazə verirlər və sıyığı üfürürlər ki, dimdiyini yandırmasın. Lakin bununla onlar Çirkiyə heç də yaxşılıq etmirlər, çünki Çirki öz qayğısına qalmağı öyrənməlidir.

"KÖMƏYİM kimə lazımdır?"



Benas Berantas və Vilya Kveskaytenin "İtmiş topun sirri" kitabı uşaqlara və böyüklərə qorxularını qəbul etməyi və onlarla dost olmağı öyrədən həzin, təsirli nağıldır. Bu kitab mənalı məzmunu, rəngarəng illüstrasiyaları ilə kiçik oxucuların sevimli kitabına çevriləcək. Bu nağılın qəhrəmanları gecələr qaranlıqdan və orada gizlənən naməlum varlıqlardan qorxurlar. Bununla belə, itmiş topu tapmaq üçün qorxularını dəf edərək meşəyə yollanırlar.

Bu hekayə uşaqlara cəsarətli olmağı, qorxuları ilə mübarizə aparmaq əvəzinə, onları anlamağa çalışmağı öyrədir.



Bacıma ithaf olunur. Uşaqlıqda yuxuya getməzdən əvvəl işığı söndürəndən sonra ətrafa yayılan söhbətlər və gülüşlərin xatirinə.

*Benas*

Bacım qızı Pole və bacım oğlu Dominikasa ithaf olunur.
Qorxunun gözlərinə dik baxın.

*Vilya*

Benas Berantas
Vilya Kveskayte

# İTMİŞ TOPUN SİRRİ




qanun nəşriyyatı



Quzğun Çirki
çox sevinirdi, ona görə ki,
sincab Tikli onlara
**GECƏLƏMƏYƏ**
gələcəkdi.



Dostlar
pijamalarını
geyinərək bütün
axşamı atılıb-düşdülər.









Əvvəlcə onlar **GİZLƏNPAÇ** oynadılar.

Ardınca
**QAÇDI-TUTDU**
oynadılar.










Sonra isə
**YARIŞMAĞA**
başladılar.

Ev dostların səsindən **LƏRZƏYƏ** gəlirdi.




Qəflətən qapı açıldı.

Yuxulu valideyn quzğunlar qapının yanında dayanmışdılar.

“Artıq yatmaq vaxtıdır”, – deyərək oğlanları yataqlarına uzatdılar və özləri də yatmağa getdilər. Lakin Çirki yerindən sıçrayaraq işığı yandırıb dedi: